

# İlham Əliyev uzaq Afrikanı yaxın edir

## Hasan Şeyx MAHMUD: "Azərbaycan Somaliyə Afrikanın inkişaf edən bazarlarına, xüsusilə ticarət və logistika sahələrində qapı kimi baxa bilər"

**Somali təbii sərvətləri bol olan, amma dəfələrlə dövlət çevrilişlərinə və müharibələrə, eləcə də quldur basqınlarına məruz qalan ölkədir. Somalinin iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Balıqçılıq və əkinçilik bu Afrika ölkəsinin ümumi daxili məhsulunun (ÜDM) böyük bir hissəsi və ölkə əhalisinin yarıdan çoxunun əsas məşğuliyyət sahələridir.**

Somali İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və Qoşulmama Hərəkatının fəal üzvüdür. Həmin çərçivədə Azərbaycanla qarşılıqlı hörmətə və marağa əsaslanan əməkdaşlıq əlaqələri quran Somali bu əlaqəni inkişaf etdirmək niyyətindədir. Səbəbi məlumdur - Azərbaycan etibarlı və sadiq tərəfdaşdır. Bu gün Azərbaycan Somalidə müxtəlif sosial və iqtisadi çağırışlara dəstək göstərməklə ölkənin inkişafına töhfə verir. Konkret desək, iki ölkə arasında kənd təsərrüfatı, balıqçılıq, neft-qaz sənayesi, "yaşıl enerji", humanitar yardım və təhsil sahələrində qarşılıqlı təcrübə mübadiləsi aparılır.

Yeni formalaşan bu münasibətin fonunda Somali Prezidentinin Azərbaycana səfəri mühüm əhəmiyyət kəsb edir və hər iki dövlət arasında əməkdaşlığın yeni mərhələyə keçəcəyindən xəbər verir. Səfər çərçivəsində keçirilən görüş zamanı liderlər əsasən ikitərəfli münasibətləri müzakirə etdilər. Ardınca isə iki ölkə arasında mühüm sənədlər imzalandı. İmzalanmış sənədlər Azərbaycanla Somali arasında iqtisadi, siyasi və mədəni əlaqələrin gücləndirilməsini ehtiva edir.

Xatırladaq ki, bir həftə əvvəl Azərbaycanın böyük nümayəndə heyəti Somaliyə səfər etmiş və əsasən gələcəkdə iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması üzərində fikir mübadiləsi aparmışdır. Bu faktı mətbuata verdiyi bəyanatında səsləndirən Prezident İlham Əliyev daha sonra bildirmişdir: "Düşünürəm ki, Prezidentin rəsmi səfəri nəticəsində biz digər heyəti konkret hədəf və məqsədlərlə sərmayə sahələrini müəyyən etmək, eləcə də Azərbaycanın sərmayələri qəbul oluna biləcək və faydalı olacaq konkret layihələri qeyd etmək üçün Somaliyə ezam etməliyik. Məsələn, bu sahələr infrastruktur, liman qurğuları və kənd təsərrüfatı ola bilər. Cənab Prezident kənd təsərrüfatında böyük potensialın olduğu barədə mənə məlumat verdi. Mən, həmçinin Azərbaycanda özünü təmin edən kənd təsərrüfatının yaradılması ilə əlaqədar hədəflərimiz barədə məlumat verdim. Bir sözlə, hesab edirəm ki, biz bu sahədə kifayət qədər nəzərəçarpan əməkdaşlıq qura bilərik".

Yeri gəlmişkən, qeyd edək ki, bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruanda və Keniyaya səfər etmişdir. Ruanda və Keniya prezidentləri ilə görüşən Leyla xanım səfər çərçivəsində Ruandanın Kiqali şəhəri yaxınlığındakı məktəbdə olmuş, Kiqali Soyqırımı Memorialını ziyarət etmişdir. Keniyanın paytaxtı Nayrobi şəhərində də olan Leyla Əliyeva bu ölkənin ən qədim təhsil ocaqlarından sayılan Nayrobi tam orta məktəbinə baş çəkmiş, məktəbdə fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində avadanlıqlarla təchiz edilmiş laboratoriya və kompüter sinfinin açılışını etmişdir.

Məlumdur ki, əhaliyə yüsək səviyyədə xidmət göstərmək, bütün xoşagəlməz halların qarşısını almaq, süründürməçilik və bürokratiyaya son qoymaq "ASAN xidmət"in əsas missiyasıdır və qurum bu işin öhdəsindən bacarıqla gəlir. Dünyanın bir çox ölkəsi ilk dəfə Azərbaycanda tətbiq edilən "ASAN xidmət"in təcrübəsindən yararlanır. Prezident İlham Əliyev bəyanatında "ASAN xidmət"in Somalidə də tətbiq olunması ehtimalını söyləmişdir: "Azərbaycanda "ASAN xidmət"lərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır. Bilirəm ki, Prezidentin proqramında həmin xidmət mərkəzlərindən birinə səfər var və əgər siz qərar qəbul etsəniz, bəyənsəniz, biz sizin ölkədə oxşar sistemi qura bilərik".

Söz düşmüşkən qeyd edək ki, Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud səfər çərçivəsində "ASAN xidmət" mərkəzinə gedərək onun fəaliyyəti ilə tanış oldu. Ali qonağa "ASAN xidmət" modeli ilə bağlı təqdimat edildi, hazırda Azərbaycanın intellektual brendinin 20-dən çox ölkəyə ixrac edildiyi diqqətə çatdırıldı. Hasan Şeyx Mahmud Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan "ASAN xidmət"in onda yüksək təəssürat yaratdığını və əhalinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynadığını vurğuladı. Həmçinin o, "ASAN xidmət"in dövlət xidmətlərinin göstərilməsi sahəsində ən yüksək peşəkarlıq və səmərəlilik səviyyəsi olduğunu, burada vətəndaşların işlərini sürətləndirmək üçün yaxşı imkanların yaradıldığını bildirdi. Somali Prezidenti Azərbaycanın təcrübəsi əsasında ölkəsində dövlət xidmətləri mexanizminin yenilənməsinə və bununla bağlı verilən dəstəyə görə Azərbaycanın dövlət başçısına minnətdarlığını ifadə etdi.

Somali Prezidenti mətbuata bəyanatında ölkəsinin Azərbaycanın etibarlı tərəfdaş olduğunu, onunla əməkdaşlıqdan məmnun qaldığını, təcrübəsindən öyrənməyə hazır olduğunu vurğuladı: "Somali zəngin resursları və böyük potensialı olan ölkədir. Lakin şərait inkişaf etməyə imkan verməyib. Azərbaycan kimi yaxşı tərəfdaşlarla ölkəmizin potensialı üzə çıxacaq və o, proqnozlaşdırıla bilən olacaq. Azərbaycandan öyrənə biləcəyimiz digər əsas sahələr proqnozlaşdırıla bilən siyasət və proqnozlaşdırıla bilən inkişaf siyasətidir. Azərbaycan Somaliyə Afrikanın inkişaf edən bazarlarına, xüsusilə ticarət və logistika sahələrində qapı kimi baxa bilər. Somalinin Hind okeanında və Qırmızı dənizdə strateji olaraq yerləşməsi ölkələrimiz üçün iqtisadi faydaların paylaşıla və araşdırıla biləcəyi qiymətli strateji ərazidir".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 15 fevral (№ 34).- S.6.